**UOT 902**
https://doi.org/10.59849/2218-4783.2026.2.115

# NAXÇIVANIN ANTİK DÖVRƏ AİD ŞÜŞƏ QABLARI

# GLASS VESSELS OF THE CLASSICAL PERIOD FROM NAKHCHIVAN

**Ziniyət MƏMMƏDOVA (SÜLEYMANOVA)***

## XÜLASƏ

Naxçıvanın antik dövr abidələrindən əldə olunan şüşə məmulatlarının tipoloji xüsusiyyətlərinin, istehsal texnologiyasının və bölgənin ticarət əlaqələri ilə bağlı məlumatlarının sistemli şəkildə araşdırılması göstərir ki, eramızın I-II əsrlərində şüşə qablar əsasən xarici istehsal mərkəzlərindən gətirilmiş, III əsrdən etibarən isə yerli istehsalın ilkin mərhələləri formalaşmağa başlamışdır. Böyükdüz, Albantəpə, Oğlanqala və digər abidələrdən tapılan nümunələrin analizi onların beş əsas tip üzrə qruplandığını göstərir. Şüşə qabların divarlarında qeydə alınan hava qabarcıqları və materialın dalğalı strukturu istehsal texnologiyasının hələ tam yetkinləşmədiyini göstərir. Bununla belə, üfürmə üsulunun tətbiqi yerli ustaların bu texnikanı mənimsədiyini nümayiş etdirir. Şüşə qabların geniş coğrafiyada yayılması onların gündəlik məişətdə aktiv şəkildə istifadə edildiyini, eyni zamanda regionun Yaxın Şərq və Aralıq dənizi mədəniyyətləri ilə sıx ticarət əlaqələri saxladığını təsdiqləyir.

**Açar sözlər:** *Naxçıvan, antik dövr, şüşə qablar, tipologiya, istehsal texnologiyası, ticarət əlaqələri.*

## ABSTRACT

A systematic study of the typological characteristics, production techniques and trade relations of glassware obtained from Classical-period monuments in Nakhchivan shows that glass vessels in the 1st-2nd centuries CE were primarily imported from foreign production centers, while the initial stages of local production began to take shape from the 3rd century CE. The analysis of finds from Böyükdüz, Albantəpə, Oğlanqala, and other archaeological sites indicates that these vessels can be classified into five principal types. Air bubbles recorded in the walls of the glass vessels and the wavy structure of the material suggest that the production technology had not yet fully matured. Nevertheless, the application of the blowing technique demonstrates that local craftsmen had mastered this method. The wide geographical distribution of glass vessels confirms that they were actively used in daily life and that the region maintained close trade relations with the cultures of the Near East and the Mediterranean.

**Keywords:** *Nakhchivan, Classical period, glass vessels, typology, production technology, trade relations.*

## GİRİŞ

Maddi mədəniyyət nümunələrinin Azərbaycanın Antik dövr mədəniyyətinin öyrənilməsi, qədim cəmiyyətlərin iqtisadi, mədəni və sosial həyatını dərk etmək baxımından xüsusi əhəmiyyəti vardır. Şüşə məmulatları bu cür maddi mədəniyyət nümunələri arasında xüsusilə fərqlənir, çünki artıq bu dövrdə şüşədən həm də gündəlik məişətdə istifadə edilmişdir. Şüşə qabların arxeoloji abidələrdən aşkar olunması həmin ərazilərdə ticarət əlaqələrinin genişliyi, texnoloji yeniliklərin mənimsənilməsi və mədəni qarşılıqlı təsirlər haqqında məlumat əldə etməyə imkan verir. Aparılmış tədqiqatlar göstərir ki, Qafqaz Albaniyasının müxtəlif regionlarında aşkar olunan şüşə məmulatları ilk vaxtlar idxal məhsulu olsa da, sonradan onların yerli istehsalı mənimsənilmişdir. Bu baxımdan, Naxçıvan arxeoloji abidələrinin materialları xüsusilə aktualdır, çünki burada tapılmış şüşə qablar tipoloji müxtəliflik,

*AMEA Naxçıvan Bölməsi, e-mail: ziniyet1999@gmail.com
ORCİD: 0009-0006-5299-1119

texnoloji xüsusiyyətlər və xronoloji göstəricilər baxımından fərqlənməklə yanaşı, eyni zamanda digər bölgələrin materialları ilə paralellik təşkil edir.

Bu araşdırmada Qafqaz Albaniyasının ümumi mədəni inkişafı kontekstində Naxçıvandan tapılan şüşə məmulatlarının tipoloji təsnifatını vermək və istehsal mərkəzlərini təhlil etmək nəzərdə tutulmuşdur. Bizim apardığımız araşdırmalar Naxçıvan ərazisində antik dövr abidələrindən aşkar edilmiş şüşə məmulatlarının tipoloji təsnifatını, onların yayılma arealını, istehsal mərkəzlərini və bu materialların regionun mədəni-ticarət əlaqələrindəki rolunu müəyyənləşdirməyə imkan verir.

**ŞÜŞƏ QABLARIN YARANMA TARİXİ**

Şüşə qablar ilk dəfə e. ə. XV əsrdə Misir və Mesopotamiyada hazırlanmış, daha sonra Yunanıstan və Romada istifadə olunmuşdur. Şüşənin geniş şəkildə istifadə olunması isə antik dövrə təsadüf edir. Romada şüşə istehsalı e. ə. I əsrin əvvəllərində sürətlə inkişaf etmişdir. Üfürmə texnologiyasının ixtira edilməsi şüşənin istehsal prosesini asanlaşdırmış və müxtəlif formalı məmulatların hazırlanmasını mümkün etmişdir. Bu yenilik nəticəsində şüşə qablar, xüsusən də içki qabları, tezliklə keramikanı əvəz etmişdir. Araşdırmalar göstərir ki, qədim Roma ustaları şüşə məmulatının üzərinə rəngli və rəngsiz şüşədən bəzək vura bilirdilər. Bu dekorativ elementlər isə basma üsulu ilə icra olunurmuş, lakin naxışlanma zamanı qabın xaricində batıqlar, daxilində isə relyef qabarmaları olurmuş. E. ə. I əsrdə süni üfürmə üsulu ilə şüşə qabların hazırlanmasının mənimsənilməsi şüşə istehsalını genişləndirməyə və müxtəlif tipli şüşə qablar hazırlamağa imkan vermişdir.

Xüsusilə, müəyyən formalı qəliblərdə üfürmə ilə hazırlanan şüşə qablar ilkin mərhələdə daha çox istifadə olunmuşdur. Tədqiqatçıların fikrinə görə süni üfürmə Babilistanda yaşayan suriyalı ustalar tərəfindən kəşf edilmişdir. Şəffaf şüşə istehsalı isə bizim eranın birinci əsrində mümkün olmuşdur [Tahirli, 2023: 76].

Bununla belə, üfürmə texnikası geniş yayılsa da, qəlibdə tökmə üsulu tamamilə yox olmamışdır. Şüşə üfürmə texnikası e. ə. I əsrin əvvəlində Suriya-Fələstin regionunda yaranmışdır. Üfürmə üsulu tökmə prosesinin məhdudiyyətlərini aradan qaldırdı və istehsal sürətini xeyli yüksəltdi.

Bəziləri üfürmə texnikasını tökmə və keramika qəlibləri ilə birləşdirərək “mold-blown” qablar istehsal edirdilər. Şüşə mozaika tesseralı döşəmələrdə, divar mozaikalarında, həmçinin rəngsiz şüşədən hazırlanmış və arxasına mum, suvaq və ya metal qoyularaq hazırlanmış güzgülərdə də istifadə edilirdi.

Şüşəli pəncərələr isə Roma imperiyasının erkən dövrlərində hazırlanmağa başlamış, xüsusilə ictimai hamamlarda hava axınının qarşısını almaq üçün geniş tətbiq olunmuşdu. Romada şüşə pəncərələri işıq keçirməkdən çox, izolyasiya və təhlükəsizlik məqsədi daşıdığı üçün onların mükəmməl şəffaflığına və qalınlığına xüsusi diqqət yetirilmirdi. Pəncərə şüşəsi də həm tökmə, həm də üfürmə yolları ilə hazırlana bilirdi. İlk dəfə şüşə pəncərənin Pompeyin hamamında istifadəsi ilə bağlı məlumatlar var. E. ə. I əsrdə yaşamış yunan coğrafiyaşünası Strabon Makedoniyalı İsgəndərin ölümündən sonra şüşə tabuta qoyulması haqqında məlumat versə də, tədqiqatçıların fikrinə görə o dövrdə belə əşyalar hazırlamaq mümkün olmamışdır [Tahirli, 2023: 76].

**ŞÜŞƏ QABLARIN YAYILMA COĞRAFİYASI**

Naxçıvanın digər abidələrindən aşkar olunan şüşə qablar tapıntılarının yayılma coğrafiyasının geniş olduğunu təsdiqləyir. Oğlanqala küp qəbirlərində (şəkil 2) flakon və ona aid parçalar, Meydantəpədən şərqdə təsadüfən aşkar edilmiş torpaq qəbirlərdən qab qalıqları, Şıxmahmud nekropolundan çəhrayı, göy və yaşıl rəngdə olan kiçik həcmli 4 flakon məlumdur ki, bəzi nümunələrdə gövdə və boğaz hissəsini birləşdirən lentvarı, ortası batıq qulp müşahidə olunur. II və III Böyükdüz nekropol-

larında, Yurdçu kurqanlarında, həmçinin Camaldın nekropolunda və Qoşadizə küp qəbirlərində də müxtəlif şüşə qırıqları tapılmışdır [Baxşəliyev, 2008: 203; 232; 219; 16; 98].

Naxçıvan ərazisində aparılmış arxeoloji tədqiqatlar antik dövr nekropolları və yaşayış yerlərindən əldə olunan şüşə məmulatının həm forma müxtəlifliyi, həm istehsal texnikası, həm də yayılma coğrafiyası baxımından zəngin mənzərə yaratdığını göstərir.

Böyükdüz nekropolları, Albantəpə yaşayış yeri və nekropolu, Oğlanqala, Yurdçu kurqanları, Şıxmahmud nekropolu, Meydantəpə yayış yeri, Camaldın və Qoşadizə kimi ərazilərdən əldə olunan tapıntılar göstərir ki, Naxçıvanda şüşə məmulatı eramızın əvvəllərindən etibarən istifadə olunmuşdur.

**TİPOLOJİ TƏSNİFAT**

Tapıntılar formaca beş tip üzrə bölünür. Birinci tipə xaricə çıxıntılı və halqaşəkilli ağız kənarlı, uzun silindrik boğazlı və yastı oturacaqlı olan açıq yaşıl və mavi rəngli qablar aiddir. Bu tip I Böyükdüz nekropolunda iki nümunə ilə təmsil olunur. Bu tip qablar eyni zamanda Albantəpə [Novruzlu & Baxşəliyev, 1993: 13], Oğlanqala və Yurdçu kurqanlarından da məlumdur. Albantəpə nümunəsi digərlərindən uzunsov və silindrik formalı boğazın qıfşəkilli ağızla tamamlanması ilə fərqlənir.

İkinci tip şar gövdəli, qısa silindrik boğazlı və xaricə çıxıntılı halqaşəkilli, yastı oturacaqlı ağız kənarlı qabları əhatə edir. Onlar I Böyükdüz, Albantəpə və Oğlanqaladan [Baxşəliyev, Gopnik, Ristvet & Aşurov, 2012: 366] məlumdur. Bu tip daxilində Böyükdüz nekropolundan tapılan nümunələr gövdədə dalğaşəkilli naxışlarla, Oğlanqala küp qəbirlərindən aşkar olunan şüşə qablar ensiz qabarıq zolaqların olması ilə fərqlənir (şəkil 1). Həmçinin Albantəpə yaşayış yerindən aşkar edilən qab ağzının düz olmasına və formasına görə Böyükdüz nekropolundan fərqlənir. Bu tip qablar Qarqucaq (Goranboy) ərazisindəki küp qəbirlərindən də məlumdur [Hüseynov, 2010: 195].

Üçüncü tip boğaz quruluşuna görə birinci tipə yaxın olmaqla birlikdə gövdəsinin üst hissəsinə birləşən iki halqaşəkilli qulp və qulpların üst hissəsində damlaşəkilli çıxıntılarla seçilir. Bu tip I Böyükdüz nekropolundan əldə edilən tapıntılar ilə məlumdur. Bu cür şüşə qablara Goranboy rayonunun Qarqucaq kəndindəki küp qəbirlərdə də rast gəlinmişdir [Hüseynov, 2010: 197].

Dördüncü tip qablar qıfşəkilli ağız, qısa və dar boğaz, şarşəkilli gövdə və gövdəni tam əhatə edən sıx relyef naxışa sahibdir. Bu cür sıx relyefli naxışlar Oğlanqala şüşə qablarından tamamilə fərqlənir [Tahirli, 2023: 76 ]. I Albantəpə nekropolundan 55-60 yaşlı kişiyə məxsus daş qutu qəbrindən və Oğlanqala nekropolundan tapılan bu qablar dekorativ işlənmə baxımından Roma şüşəçilik ənənəsini xatırlatsa da, süni üfürmə yolu ilə hazırlanmış və daha gözəl görünüşə malik olmuşdur [Novruzlu & Baxşəliyev, 1993: 14]. Bununla belə, şüşə qabların divarlarında saxlanan dalğalanmalar və hava qabarcıqları şüşə istehsalının ilkin mərhələdə olduğunu, tam təkmilləşmədiyini göstərir.



**Şəkil 1.** Oğlanqala nekropolu, küp qəbirdən tapılan şüşə qab.

Beşinci tip Albantəpə nekropolundan tapılan, qabarıq-şar gövdəli və qıfşəkilli boğazlı qablar ilə təmsil olunur. Bəzi qabların ağız kənarı relyef halqalarla işlənmişdir. I Albantəpə nekropolunda bunlarla yanaşı bərpa edilə bilməyən müxtəlif formalı şüşə qab qırıqlarının parçaları aşkar olunmuşdur. Bu nümunələr burada forma müxtəlifliyinin daha geniş olduğunu göstərir [Novruzlu & Baxşəliyev, 1993: 14].

**ANTİK DÖVRDƏ ŞÜŞƏ MƏMULATININ HAZIRLANMA TEXNOLOGİYASI VƏ MƏİŞƏTDƏ İSTİFADƏSİ**

Müasir laborator analiz nəticələrinə görə qədim dövrdə şüşə əsasən silisium, natron və kalsium əsaslı standart formul üzrə hazırlanmışdır [Dardeniz, Henderson & Roe, 2022, s. 12-14]. Naxçıvan antik dövr şüşə qablarının rəng və şəffaflıq üzrə fərqlilikləri, strukturunda müşahidə olunan dalğalanma və naxışlanma xüsusiyyətləri bu texnoloji təcrübənin yerli mühitdə tətbiq müddətində dəyişdirildiyini göstərir. Belə ki, Oğlanqala və Böyükdüz materiallarında keramika qabların formalarının şüşədə təkrarlanması lokal ustalıq ənənələrinin şüşə istehsalına uyğunlaşdırıldığını sübut edir. Qafqaz Albaniyasına aid abidələrdən tapılan şüşə qablar funksiyasına görə beş əsas qrupa bölünür – dərman və ya ətriyyat qabları olan balzamarilər, flakonlar, qədəhlər, küpə və camlar.

Bu qrupa daxil olan nümunələrin içərisində Qalatəpə nekropolunda küp qəbirdən tapılan üfürmə üsulu ilə nəfis şəkildə hazırlanmış balzamari xüsusilə diqqəti cəlb edir. Balzamarilər, flakonlar, qədəhlər və müxtəlif formalı qablar antik dünyada geniş yayılmışdır [Əliyeva, 2024: 34]. Naxçıvan tapıntıları da onlarla bənzərdir. Məişətdə şüşə məmulatdan qab-qacaq, ətirqabı, kirşanqabı, ənlikqabı və s. kimi istifadə edilirdi. Dəfn mərasimində lazım olan ətirlər və ətirli yağlar da şüşə qablara tökülürdü. Azərbaycan ərazisindən şüşə məmulatı, eləcə də məharətlə düzəldilmiş vazalar, qədəhlər, ətirqabılar, kolbaşəkilli qablar tapılmışdır. Bunlar başlıca olaraq küp, katakomba və daş qutu qəbirlərdə aşkar edilmişdir [Əliyev, 2007: 298].

Qafqaz Albaniyasında dekorativ tətbiqi sənətin yüksək inkişaf səviyyəsinə çatmış növlərindən biri də bədii şüşə sənətidir. Albaniyada şüşə istehsalının əsasən b. e. II-III əsrlərindən başladığı ehtimal edilsə də, daha qədim dövrə aid nümunələrin əhəmiyyətli qismi Yaxın Şərq, xüsusilə Suriya və Şərqi Aralıq dənizi istehsalı ilə bağlıdır.

Bu materiallar Naxçıvanın antik dövr mədəniyyətində şüşə məmulatının istifadə dairəsinin yalnız ritual sahə ilə məhdudlaşmadığını, gündəlik məişət mədəniyyəti ilə də əlaqəli olduğunu göstərir.

**İQTİSADİ-MƏDƏNİ ƏLAQƏLƏR**

Tədqiqatçıların fikrinə görə, Azərbaycanda şüşə qabların istifadəsinə eramızın əvvəllərindən başlanmışdır [Osmanov, 1982: 96]. Bu sahə, qədim Azərbaycanın yerli mədəniyyətləri ilə yanaşı qonşu mədəniyyətlərlə əlaqələrdə də mühüm yer tutmuşdur. Azərbaycanın şüşə sənətinin inkişafı tarix boyu müxtəlif mədəniyyətlərin təsiri, ticari münasibətlər və texnoloji yeniliklər nəticəsində formalaşmışdır. Mingəçevir, Şamaxı, İsmayıllı, Gəncə, Qəbələ, Qarabağ və digər ərazilərdə aşkar edilmiş bədii şüşə nümunələri, şüşə kürələri, istehsal qalıqları yerli ustalıq ənənəsinin yüksək inkişaf səviyyəsini və bölgədə geniş yayılmasını təsdiq edir.

Arxeoloji tədqiqatlar göstərir ki, qədim dövrdə şüşə istehsalı ilkin mərhələdə əsasən Yaxın Şərq mərkəzlərindən idxal yolu ilə həyata keçirilmiş, daha sonralar isə texnologiyanın lokal mənimsənilməsi əsasında yerli emalatların fəaliyyətə başlaması müşahidə edilmişdir. Müasir elmi ədəbiyyatda bu proses “ingot formasında ilkin idxal və emalatxana səviyyəsində yerli istehsalın təşəkkülü” modeli kimi qiymətləndirilir [Dardeniz, Henderson & Roe, 2022: 2-3]. “Primary Evidence for Glassmaking in Late Bronze Age Alalakh / Tell Atchana” adlı məqalədə yerli istehsalın mövcudluğunu sübut edən əsas göstəricilər – şüşə şlakları, soba qalıqları, istehsal tullantıları və kimyəvi tərkibin sabitliyi – qeyd

olunur və bu materiallar əsasında texnologiyanın artıq sənaye səviyyəsində mənimsənildiyi təsbit edilir [Dardeniz, Henderson & Roe, 2022: 6-11]. Naxçıvan abidələrindən əldə olunan şüşə məmulatları istehsalat tullantıları təqdim etməsə də, bəzi qab nümunələrinin divarlarında hava qabarcıqları və materialın dalğalanması texnologiyanın hələ tam təkmilləşmədiyini, lakin süni üfürmə üsulunun artıq mənimsənildiyini göstərir. Bu xüsusiyyət I Albantəpə və Böyükdüz nekropollarından aşkar olunan IV tip qab nümunələrində daha aydın müşahidə edilmişdir.




**Şəkil 2.** Oğlanqala nekropolu, tapılan küp qəbr.

Şüşə məmulatlarının əvvəlcə ticarət yolu ilə regiona daxil olduğu, daha sonralar isə yerli istehsal texnologiyasının mənimsənildiyi ehtimal edilir [Baxşəliyev, Gopnik, Ristvet & Aşurov, 2012: 366]. Tapılmış şüşə nümunələri yalnız forma müxtəlifliyi ilə deyil, həm də bədii dəyəri ilə diqqət çəkir. Şüşə, bədii sənətin tətbiqi sahələrindən biri kimi, yerli ustalar tərəfindən gemmaların və qadın bəzəklərinin hazırlanmasında da istifadə olunmuşdur.

Antik dövrdə Suriyadan Atropatenaya, oradan isə Qafqaz Albaniyasına uzanan ticarət yolları vasitəsilə şüşə məmulatının gətirilməsi bu əlaqələrin iqtisadi mahiyyətini göstərir. Aşkar edilmiş şüşə nümunələri ticarət mübadiləsinin maddi sübutları olmaqla, Yaxın Şərq ilə antik Albaniya arasında əlaqələrin mövcudluğunu aydın şəkildə nümayiş etdirir [Azərbaycan tarixi, 2007: 299]. Azərbaycan-

da tapılan əcnəbi mənşəli əşyaların bir qismi həm Qərb, həm də Şərq regionları ilə, o cümlədən Parfiya ilə bağlılığı ilə seçilir [Əliyev, 2007: 301].

Onu da qeyd edək ki, bəzi bəzək əşyaları istisna olmaqla, şüşə məmulatı əsasən hazır şəkildə xaricdən gətirilirdi. Dəyirmi oturacaqlı vazaşəkilli qablar, qulplu və yaxud qulpsuz mumiya şüşələri, altı yastı qədəhlər bu qəbildəndir. Bu nümunələrin əksəriyyəti antik dünya ölkələrində geniş yayılmışdır. Forma, ölçü və digər xüsusiyyətlərinə görə dəyirmi oturacaqlı, yapma naxışlı vazaşəkilli və kolbaşəkilli qablar, eləcə də ətir şüşələri Şərq, xüsusilə Suriya şüşə istehsalı mərkəzlərinin məhsulları ilə oxşarlıq təşkil edir [Əliyev, 2007: 298-299].

Tipoloji təhlillər göstərir ki, şüşə səhənglər Suriya mənşəli məmulatlara, vazaşəkilli qablar isə şüşə istehsalının Şərqi Aralıq dənizi tipoloji qrupuna aid edilə bilər. Kolbaşəkilli balzam qabları antik dünyanın müxtəlif regionlarında – Misirdə, Kiprdə, Dura-Yevroposda (Mesopotamiya), və digər ərazilərdə aşkar edilmişdir. Bu qabların geniş coğrafiyada yayılması onların Yaxın Şərq mənşəli olduğunu təsdiq edir. Suriyada istehsal edilən şüşə məmulatı ticarət vasitəsilə əvvəlcə Atropatenaya, daha sonra isə Qafqaz Albaniyasına gətirilmişdir [Əliyev, 2007: 299].

Alimlərin bir qismi (C.Ə.Xəlilov, İ.A.Babayev, A.B.Nuriyev və b.) hesab edir ki, Qafqaz Albaniyasında b. e.-nın III əsrinə qədər şüşə məmulatı yalnız Yaxın Şərq ölkələrindən gətirilmişdir [Əliyeva, 2024: 36]. Digər tədqiqatçılar isə Albaniyada şüşə istehsalının eramızın II-III əsrlərində meydana gəldiyini ehtimal edir. Bununla belə, əvvəlki dövrlərdə şüşə məmulatının əsasən Şərq ölkələrindən idxal edildiyi qəbul edilir [Əliyev, 2007: 342].

**TARİXLƏNDİRMƏ**

Tapıntıların tarixləndirilməsi əsasən qəbirlərin kompleksində aşkar olunan arxeoloji materiallar və sikkələr vasitəsilə mümkün olmuşdur. I Böyükdüz nekropolunda şüşə qablarla birlikdə aşkar olunan uzun dəmir xəncərlər və üçpərli ox ucluqları tədqiqatçılar tərəfindən I-II əsrlərə aid edilir. Qəbir kompleksində e. ə. I əsrə aid bəzi materiallar olsa da, ümumi tarixləndirmə I-II əsrlərə uyğun sayılır [Tahirli, 2023: 77]. Oğlanqala küp qəbirlərindən aşkar edilmiş Roma gümüş sikkələrin biri e. ə. 2-b. e. 12-ci ilinə, digərləri isə e. ə. 2-b. e. 4-cü ilinə aiddir və həmin qabların dövrünü dəqiq müəyyənləşdirməyə imkan verir. Bu sikkələr dəfn edilmiş şəxsin ticarətlə məşğul olduğunu və yüksək sosial statusa malik olduğunu göstərir [Baxşəliyev, Gopnik, Ristvet & Aşurov, 2012: 366-367].

Bütün bu dəlillər Naxçıvanda şüşə qab istifadəsinin eramızın başlanğıcından etibarən sabit bir ənənəyə çevrildiyini təsdiq edir. Azərbaycanın digər bölgələrindən əldə olunan materiallar bu mənzərənin ümumi kontekstini tamamlayır Mingəçevirdə çoxlu Misir şüşə muncuqları, Suriya şüşə məmulatı və digər şüşə məmulatı tapılmışdır. Bu arxeoloji materiallar Mingəçevir zonası sakinlərinin şəhər həyatının səviyyəsindən, onların geniş iqtisadi ticari əlaqələrindən xəbər verir [Əliyev, 2007: 316].

Aparılan tipoloji təhlil göstərir ki, I-II əsrlərdə şüşə məmulatı tam şəkildə idxal olunmuşdur. II əsrin sonu – III əsrdən etibarən texnologiya məhdud lokal istehsal səviyyəsində mənimsənilmişdir (C.Ə.Xəlilov, A.B.Nuriyev). Məhsul keyfiyyəti və forma bənzərlikləri bu mərhələdə istehsalın eksperimental xarakter daşıdığını təsdiqləyir.

**NƏTİCƏ**

Araşdırmalar şüşə qabların həm yerli istehsalın ilkin mərhələlərinə, həm də idxal olunmuş məhsulların bölgədə geniş yayılmasına dəlalət edir. Aşkar olunan nümunələr həm süni üfürmə, həm də bəzi hallarda qəlibdə tökmə texnikasının tətbiq olunduğunu sübut edir. Araşdırmalar göstərir ki, Naxçıvan antik dövr şüşə qabları forma müxtəlifliyi və dekorativ xüsusiyyətlərinə görə olduqca zəngindir. Aparılan tədqiqatlar göstərir ki, şüşə qabların müəyyən bir hissəsi ticarət vasitəsi ilə ölkəmizə

daxil olmuşdur. Şüşə qabların çoxu isə yerli ustalar tərəfindən hazırlanmışdır ki, bu da məişətdə şüşə qabların istifadəsi artmışdır.

## ƏDƏBİYYAT

Əliyev İ. (Red.). (2007). *Azərbaycan tarixi* (1-ci cild: Ən qədimdən – b. e. III əsri). Elm.

Baxşəliyev, V.B. (2008). *Naxçıvanın arxeoloji abidələri*. Elm.

Baxşəliyev, V., Gopnik, H., Ristvet, L. & Aşurov, S. (2012). Oğlanqalada Azərbaycan-Amerika birgə arxeoloji qazıntıları. In Bünyadov T.Ə., Babayev İ.A. (Red.), *Azərbaycanda arxeoloji tədqiqatlar – 2012*, 360-378. Xəzər Universiteti.

Dardeniz, G., Henderson, J. & Roe, M. (2022). Primary evidence for glassmaking in Late Bronze Age Alalakh. Tell Atchana (Amuq Valley, Turkey). *Journal of Glass Studies*, 64, 11-32.

Əliyeva, G. (2024). Glassware from the ancient monuments of lowland Karabakh. *Elmi tədqiqat*, 4 (7), 32-38.

Hüseynov, M. (2010). Goranboy rayonunun Qarqucaq kəndindən aşkar edilmiş küp qəbir haqqında. In Bünyadov T.Ə., Babayev İ.A. (Red.), *Azərbaycanda arxeoloji tədqiqatlar*, 195-202. Xəzər Universiteti.

Novruzlu, Ə.İ., & Baxşəliyev, V.B. (1993*). Şərurun arxeoloji abidələri.* Elm.

Osmanov, F. (1982*). Qafqaz Albaniyasının maddi mədəniyyəti*. Elm.

Tahirli, A. (2023). *Naxçıvanın antik dövr sənətkarlığı və təsərrüfat həyatı* [Doktorluq dissertasiyası, AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu]. https://retk.copat.gov.az/ru/library/naxcivanin-antik-dovr-senetkarligi-ve-teserrufat-heyati-avtoreferat-dis-felsefe

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 20.05.2026**
**Son variant 11.06.2026**